## Cəsarətli addim

O, novatorluq təcəssümüdür. Onun düşüncələri, fikirləri, təklifləri, ideyaları, iş üslubu çoxlarının qəbul etdiyi standarta uyğun gəlmir. O, hər şeydə orijinaldır, unikaldır. Ona görə də yaratdığı universitet də bənzərsizdir. Çoxları kimi o da keçən əsrin 90-cı illərinin əvvəlində universitet açdı. Lakin çoxlarından fərqli olaraq, bu universitetin özülü hər şeyə davam gətirən materiallardan quruldu. Odur ki, obyektiv, subyektiv çətinliklərə dözə, maneələri aradan qaldıra bildi. Bunun nəticəsi olaraq, dünya universitetləri sırasında öz dəst-xəti olan Xəzər Universiteti layiqli yerini tutdu. Onun sorağı Amerikadan, Avropadan, Çindən, Yaponiyadan gəldi. Dünyanın tanınmış universitetləri onunla müəllim, tələbə mübadiləsi, ikili diplom verilməsi kimi əməkdaşlığa başladılar. Bu, Xəzər Universitetinin nailiyyəti, uğuru idi.

Xəzər Universitetinin uğurlarını onun yaradıcısı, uzun illər rektoru olmuş professor Hamlet İsaxanlının adı ilə bağlamaq ədalətli olardı. Məhz onun iti zəkası, tükənməz enerjisi, təşkilatçılıq istedadı Xəzər Universitetinin bənzərsiz bir universitetə çevrilməsinə səbəb olub. O, yeni idarəetmə sistemi, iş üslubu yaradıb. Xəzər Universitetinin çiçəkləndiyi bir vaxtda biz gözlənilməz, çox cəsarətli addımın şahidi olduq - Hamlet müəllim rektorluqdan istefa verdi. Rektor vəzifəsini tutmaq üçün müsabiqə elan etdi. Çoxsaylı namizədlər içərisindən bir rektor seçdi. Bu addım bir daha sübut etdi ki, Hamlet müəllim daima axtarışdadır, onun üçün təkmilləşmənin hüdudu yoxdur. Hamlet müəllim həm də şahmat oynamağı sevir və bir neçə gedişi qabaqcadan riyaziyyatçı dəqiqliyi ilə hesablaya bilir. Əminəm ki, Hamlet müəllim bu gedişini də dəqiqliklə hesablayıb. Bizə isə Xəzər Universitetinə yeni uğurlar diləməkdən başqa bir şey qalmır.

Lakin oxucularımız üçün də maraqlı olacağını nəzərə alaraq, Xəzər Universitetinin sabiq rektoru, hazırda Direktorlar və Qəyyumlar şurasının sədri professor Hamlet İsaxanlı və yeni seçilmiş rektoru professor Con Rayder ilə söhbəti diqqətinizə çatdırıram.

- Hamlet müəllim, Xəzər Universitetində rektor dəyişikliyi nə ilə bağlıdır?

- Xəzər Universiteti durmadan inkişaf edir, bu təbiidir. Xüsusilə gənc, yenilikçi, dinamik, liderlik iddiasında olan və bunu artıq haqq etmiş ali məktəb kimi geniş inkişaf planımız var. Elmi-pedaqoji, idarəetmə, quruculuq işlərimiz artır, əslində özümüz ortaya yeni-yeni işlər çıxarmaqla məşğuluq. Bu halda gücümüzü səfərbərliyə almalıyıq, əgər beynəlxalq arenada fəal olmaq, görünmək, fərqlənmək istəyiriksə, bunu beynəlxalq komanda ilə etməliyik. Mən 2009-cu ilin payızında rəsmi olaraq yeni rektor axtarışında olacağımı elan etdim. İşlər çoxaldıqca, işlərin miqyası böyüdükcə əlavə qüvvələrə ehtiyac artır. Bəzən gündəlik məsələlərin həlli ilə məşğul olarkən, bir tələbənin, bir müəllimin, bir təsərrüfat işçisinin problemləri ilə üzləşib həll yolları axtararkən daha böyük bir məsələnin məni gözlədiyini görür, lakin ona vaxt çatdırmırdım. Daha çox strateji məsələlərin üzərində dayanmaq lazımdır, universitetimizin ümumi inkişafı ilə, böyüməsi, güclənməsi, maddi və laboratoriya bazasının müasir standartlara cavab verməsi üzərində ça-lışmaq istədim. Bunun üçün rektorluqdan getmək lazım idi. Qoy beynəlxalq təcrübəsi olan bir adam gəlib rektorluq etsin. Mən təsisçi kimi Xəzər Universitetinə tam bağlıyam və bağlı olacam; bu hamıya aydındır. Üstəlik, qarşıma Direktorlar və Qəyyumlar Şurasını qurmaq və bu yolla da universitetin inkişafını sürətləndirmək vəzifəsi qoydum. Və nəhayət, mən elmlə, sənətlə, yaradıcılıqla məşğulam, bunlarsız həyatım yoxdur, bunlarsız xoşbəxt ola bilmərəm (həyat yolum belə qurulub). Yarımçıq qalmış çox yazılarım, kitablarım var, yeni yaradıcılıq planlarım var. Ümid edirəm ki, rektor vəzifəsindən azad olmaqla yaradıcılığa daha çox vaxt ayıra biləcəm.

- Rektorluğa namizədlər üçün tələb olunan meyarlar nədən ibarət idi?

- Yaxşı alim olmaq, yaxşı yerlərdə qazanılmış yüksək idarəetmə təcrübəsi, təşəbbüskar olmaq, liderlik qabiliyyəti.

- Xarici ölkə vətəndaşlarının Xəzər Universitetində vəzifələrə cəlb edilməsi davam edəcəkmi?

- Mütləq davam edəcək. Xəzər Universitetini irəli aparacaq komanda həm Azərbaycanın ən güclü, istedadlı insanlarından, həm də xarici ölkə vətəndaşlarından təşkil olunmalıdır. Xarici əlaqələr, texnoloji-mühəndislik, ingilis dili və digər sahələrdə uyğun xarici mütəxəssislərə ehtiyacımız var.

- Xarici ölkə vətəndaşlarının Xəzər Universitetində vəzifələrə cəlb olunmasından nə gözləyirsiniz?

- Yeniliklər! Xəzər Universiteti yarandığı ilk günlərdən Azərbaycan təhsil sisteminə yeni nəfəs, məzmun və forma gətirir, keyfiyyət gətirir. Bu iş davam etməlidir. Qabaqcıl ölkələrin təcrübəli insanları elm, təhsil, idarəetmə sahələrində əyalətçilikdən uzaq, ətalətdən uzaq olur, mühitin daha da demok-ratik, beynəlmiləl və işgüzar olmasına təkan verir. Universitetdə tələbəyə, müəllimə, elmi işçiyə, müdirlərə tələbkarlıq artır. Mən qarşımızdakı hər ili Xəzər Universitetinin irəliyə doğru mühüm addım ili kimi, daha çox tələbə və müəllim mübadiləsi ili kimi görmək istəyirəm. Dünyada Xəzər Universitetinin nüfuzunun daha da artmasını gözləyirəm.

Bundan sonra suallarımızı universitetin yeni rektoru Con Rayderə ünvanladıq.

- Xəzər Universitetinin rektoru vəzifəsini tutmaq üçün elan olunmuş müsabiqədə qalib gəldiyinizi eşidəndə hansı hisslər keçirdiniz?

- Xəzər Universitetində və Bakıda olmaq mənim üçün böyük şərəfdir.

- Rektor seçildiyinizi ailənizdə necə qarşıladılar?

-Mənim ilk reaksiyam həyəcan, təəccüb oldu. Çox insanlar deyir ki, Xəzər Universiteti Azərbaycanda ən yaxşı universitetdir və bu universitetə başçılıq etmək nadir imkanlardan sayılır. Təbii olaraq belə bir imkanımın olduğunu öyrənmək mənim üçün sevindirici və həyəcanlandırıcı idi.

Mən və xanımım bir neçə dəfə Bakıda olmuşuq və bu qısa müddət ərzində şəhər çox xoşumuza gəlib. Bu, ona əsas verir ki, xanımım mənim Bakıya köçməyimi dəstəkləyir.

- Əminəm ki, sizi rektor vəzifəsinə maddi maraq gətirməyib, bəs onda nə gətirib?

- 25 ildən artıq dünyanın müxtəlif yerlərində işləmişəm. İlk öncə 1984-cü ildə Sovet İttifaqında, Moskva Universitetində professor kimi səfərdə olmuşam və sonralar keçmiş Sovet İttifaqı və Mərkəzi və Şərqi Avropa ölkələrində olmuşam. Axırıncı illərdə həmçinin Türkiyənin bir neçə universiteti ilə tanışlıq imkanım olub. Azərbaycan yaşamaq və işləmək baxı-mından daha əlverişlidir.

- Xəzər Universitetinin idarə edilməsində, iş üslubunda hansı dəyişiklikləri etmək fikrindəsiz?

- Mənim fikrimcə, Xəzər Universiteti üçün ən mühüm hədəflərdən biri üzümüzə gələn ildə onu dünyanın başlıca üniversitetləri siyahısına daxil et-məkdir. Bunun üçün isə lazım olan idarəçiliyi, quruluşu təqdim etmək, Amerika və Avropa universitetlərinin praktikasını tətbiq etməkdir. Biz həmçinin müəllim heyətinin

təqdiqat işlərini və təhsil işlərini daha da məhsuldar etmək yolları üzərində işləyirik. Bunu etməyimizdə əsas məqsəd universitetimizin dünya səviyyəsində yerini daha da möhkəmləndirmək və Xəzər Universitetinin beynəlxalq əlaqələrini daha da inkişaf etdirməkdir.

- Siz yeni mühitə düşmüsünüz. Bu mühitdə özünüzü necə hiss edirsiniz?

- Mən burada özümü çox rahat hiss edirəm. Universitetlərdəki kolleqalarım mənə qarşı səmimi və xoşrəftardırlar, lazım olan köməkliklərini göstərirlər. Əvvəldə də qeyd etdiyim kimi, mən Bakını çox sevirəm. İmkan daxilində Bakının digər bölgələri ilə də yaxından tanış olacam.

- Sizin Azərbaycan, Bakı, buradakı təhsil sistemi haqqında təsəvvürünüz var idimi?

- Azərbaycandakı təhsil sistemini nəzərdə tutursunuzsa, yavaş-yavaş bu sistemlə tanış oluram. Əlbəttə ki, Xəzər Universitetinin təhsil sistemi ilə də yaxından tanış oluram. Mən həmçinin yavaş-yavaş respublikanın başqa universitetləri ilə də tanış oluram. Əlbəttə ki, Amerikadakı və buradakı təhsil sistemi arasında böyük fərq var. Lakin mən Rusiya və Tükiyə təhsil sistemi ilə də tanışam. Buradakı sistem hər iki təhsil sisteminin birləşmiş formasıdır. Dünya yavaş-yavaş dəyişir və bunda universitetlərin böyük rolu var. Dünyadakı universitetlərin çoxu, həmçinin tanış olduğum universitet bu işdəki rolunu yaxşı başa düşür.

- Baxmayaraq ki, Xəzər Universitetinin əsas təhsil dili ingilis dilidir, Təhsil Nazirliyindən gələn, ora göndərilən sənədlər, məktublar, hesabatlar Azərbaycan dilində olduğundan, Azərbaycan dilini öyrənmək gərəkli olardı. Azərbaycan dilini öyrənmək fikriniz varmı?

- Bəli, bu dili mümkün olduğu qədər tez öyrənmək arzusundayam. Mən həmçinin rus dilində ünsiyyət qura bilirəm ki, bu da mənə Azərbaycan dilini başa düşməyə kömək edir. Düşünürəm ki, ngilis dilin-dən istifadə etməyim kolleqalarımın ingilis dilinin mükəmməlləşməsinə yardımçı olacaq. Beləliklə, biz hamımız bu şəraiti yaxşı qiymətləndirməliyik.

Xəlil Məcidoğlu,

E-mail: khalil_majid@mail.ru

“525-ci qəzet”, 9 fevral 2011-ci il